# Məktəbəqədər təhsil müəssisələrində pedaqoji proses və onun səmərəli idarə olunmasına rəhbərlik

**Azadə Məmmədağa qızı Əhmədova**
*Bakı şəhəri 11 nömrəli uşaq bağçasının müdiri,*
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
**E-mail:** azada.ahmadova123@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. Y.Ş. Kərimov,
p.ü.e.d., prof. A.N. Abbasov

**Açar sözlər:** pedaqoji proses, idarəetmə, inkişaf, keyfiyyət, texnalogiyalar, motivasiya, demokratikləşdirmə, rəhbər, innovasiya

**Ключевые слова:** педагогический процесс, управление, развитие, качество, технология, мотивация, демократизация, лидерство, инновация

**Key words:** pedagogical process, management, development, quality, technology, motivation, democratization, leadership, innovation

XX əsrin sonu XXI əsrin əvvəllərindən başlayaraq dövlət strukturları və ictimaiyyət tərəfindən məktəbəqədər təhsil müəssisələrinin kəmiyyət və keyfiyyət baxımından yenidən qurulması, yeni təlim texnologiyalarının, öyrədən-öyrənən münasibətlərinin, yeni inteqrativ təlim üsullarının tələbləri əsasında subyekt-subyekt münasibətlərinin formalaşması istiqamətində əldə olunmuş yeniliklər nəticədə təhsil sistemində müəyyən uğurlar qazanılmışdır. Müasir dövrün tədqiqatçı pedaqoqlarının fikrincə, şəraiti və pedaqoji kadr potensialı müasir tələblər səviyyəsində olmayan məktəbəqədər təhsil müəssisələrində islahat proqramının tələb etdiyi yeniliklərin elmi əsaslara söykənmədən tətbiqi lazımı səmərə verə bilməz. Təhsilverən, müəssisənin mövcud durumunu olduğu kimi dərk etməsə, onun yeniləşməsi yollarını bilməsə və yeniləşməni öz şəxsi maraqları kimi qəbul etməsə, təhsildə keyfiyyət dəyişiklikləri baş verə bilməz və məktəbəqədər təhsili inkişafa doğru istiqamətləndirmək olmaz [1, 3, 7].

Məktəbəqədər təhsilin inkişafı üçün hər bir təhsil müəssisəsinin rəhbəri özünüinkişaf mexanizmi hazırlamalıdır. Bu mexanizm əsasında təhsildə əldə edilən nəticələrin mütəmadi təhlili aparılmalı və bu təhlilin nəticələrinə əsasən təhsil müəssisəsinin inkişafı ilə əlaqədar problemlərin həlli təmin edilməlidir. Buradan belə bir nəticəyə gəlmək olar ki, məktəbəqədər təhsilin yeniləşdirilməsi və inkişafı üçün kənardan göstərişlər vermək, onu müxtəlif yenilikləri tətbiq etməyə məcbur etmək yolu ilə deyil, ilk növbədə müəssisənin maddi-texniki bazasının, idarəetmə strukturunun və kadr potensialının müasir tələblər səviyyəsinə qaldırılmasına nail olunmalıdır.

Təhsil müəssisəsinin səmərəli idarə edilməsi ilk növbədə düzgün, savadlı planlaşdırma işlərinin aparılması, təlim-tərbiyə prosesinin səmərəli təşkilini, motivasiyanı, nəzarəti və alınan nəticələrin təhlilinin aparılmasını tələb edir. Rəhbər öz növbəsində pedaqoji kollektivin üzvlərilə birgə idarəetmənin qarşısında duran vəzifələrin həyata keçirilməsini tənzimləyir. Bir çox məktəbəqədər təhsil müəssisələri hələdə inzibati-amirlik üsulundan əl çəkə bilmirlər. Bu yolla idarəetmənin demokratikləşdirilməsinə nail olmaq mümkün deyil. Demokratikləşmənin təhsil müəssisəsində bərqərar olmasına çalışan rəhbər demokratik dünyagörüşünə yiyələnməli, demokratik idarəetmə fəaliyyətinə malik olmalıdır. Pedaqoji prosesin demokratik idarə edilməsi

tərbiyəçi-müəllimlərin, uşaqların, valideynlərin fəaliyyətinə istiqamət vermək, onların rəylərini nəzərə alaraq işi yönləndirmək, gələcəyimiz olan körpələrin keyfiyyətli təlim-tərbiyə almaları üçün şərait yaratmaq deməkdir [2, 6, 9].

Məktəbəqədər təhsil müəssisələrində müasir tələblərə cavab verən pedaqoji prosesin səmərəli təşkili təhsil müəssisəsi qarşısında duran əsas vəzifələrdən biridir. Təhsil müəssisəsi rəhbərinin səriştəsizliyi pedaqoji prosesdə dağıdıcı xarakter daşıyır. Rəhbərin ilk növbədə üzərinə çox böyük məsuliyyət düşür, ondan rəhbərə xas olan yüksək idarəçilik mədəniyyəti və etika tələb olunur. Rəhbərin düzgün müəyyənləşdirilmiş ilk addımları onun gələcək işlərinin müvəffəqiyyətli olacağında böyük rol oynayır.

Sıravi pedaqoji işçidən rəhbəri ayıran cəhət ikincisinin daha yüksək işgüzarlıq qabiliyyəti, fikirlərində azad, demokratik, qətiyyətli olması, həlledici qərarlar verməkdən çəkinməməsidir. Tərbiyəçi-müəllim üçün bu keyfiyyətlər arzulanandırsa, rəhbər üçün isə çox vacibdir. Yaxşı tərbiyəçi-müəllim olmaq üçün öz ixtisasını, uşaq psixologiyasını bilmək, müasir metodlarla işləməyi bacarmaq qabiliyyəti həlledici rol oynayırsa, yaxşı rəhbər vəzifəsinin məsuliyyətini tam dərk etməli, yeni ideyaların müəllifi olmalı, analitik düşüncəli, düzgünlük tərəfdarı, səmərəli olanı seçib bütün kollektivin işini onun əsasında qurmağı bacarmalıdır. Təhsil müəssisəsi effektiv və operativ idarəedilməlidir. Rəhbər təhsil müəssisəsində çatışmazlıqları doğuran səbəbləri, onları aradan qaldırmaq yollarını, məqsəd və nəticə arasındakı ziddiyyətləri təhlil etmək qabiliyyətinə malik olmalı, özünütəhlil əsasında çatışmazlıqları aşkara çıxarmaq, şəxsiyyətlərarası münasibətləri düzgün qurmaq və imkanları, ehtiyacları təhlil edərək, özünüinkişaf sahəsində həmişə qələbə qazanmaq üçün adekvat qiymətləndirmə yolunu seçməlidir [2,3, 5].

Müəssisə rəhbərinin kollektiv qarşısında vacib bir problemlə bağlı məsələ qaldırması, həlli yollarının göstərilməsi və müvafiq tədbirlərin görülməsi onun birbaşa rəhbərliyi ilə həyata keçirilir. Yalnız bu halda rəhbər lider kimi qəbul edilir.

Məktəbəqədər təhsil müəssisəsi rəhbərinin fəaliyyəti əsas aşağıdakı üç istiqamətdə müəyyənləşdirilir:

1. Pedaqoji prosesə və onun səmərəli idarə olunmasına rəhbərlik;
2. İnzibati-təsərrüfat işlərinə rəhbərlik;
3. İctimaiyyətlə işin təşkilinə rəhbərlik;

Məktəbəqədər təhsil müəssisələrində işin keyfiyyəti pedaqoji prosesə metodik rəhbərliyin səmərəli təşkilindən çox asılıdır. Metodik işin səmərəliliyi planlı fəaliyyətdən, qarşıya qoyulmuş vəzifələrin qısa müddətə optimal həllindən, başlanmış işin axıra çatdırılmasından və nəticələrin qiymətləndirilməsindən çox asılıdır.

Məktəbəqədər təhsil müəssisəsinin rəhbəri metodiki işi yaxşı bilməlidir. Müəssisənin rəhbəri tərbiyəçi-müəllimlərə metodik vəsaitlərdən istifadə qaydalarının mənimsənilməsində, yeni yanaşma metodlarına yiyələnməkdə köməklik göstərməlidir. Onun inzibati-təsərrüfat fəaliyyətinin məzmununa uşaq kontingentinin saxlanılması, onun səmərəli fəaliyyətinin təşkili və maliyyə intizamına əməl olunmasını daxil etmək olar. Hər bir təhsil müəssisədə olduğu kimi məktəbəqədər təhsil müəssisəsinin əməkdaşları da bilməlidir ki, insan əli ilə yaranmış hər şey cəmiyyətin gələcək inkişafını təmin etməyə yönəlməlidir.

Müəssisənin rəhbəri, eyni zamanda maliyyə-təsərrüfat işlərini də mükəmməl bilməlidir. O, görəcəyi işi kollektivdən kənarda başqasının hazırlamasına yol verməməlidir. Belə olan halda kollektiv işə etinasız yanaşar və onların rəhbərə olan inamı azalar.

Məktəbəqədər təhsil müəssisəsinin rəhbərinin fəaliyyətinin mühüm sahələrindən biri də valideynlərlə, ictimaiyyətlə işin təşkili və pedaqoji təbliğatın önə çəkilməsi ilə bağlıdır. Pedaqoji təbliğatın məzmununa aşağıdakıları daxil etmək olar:

1. Valideynlərlə səmərəli əlaqələrin yaradılması.
2. Kollektivlə söhbətlərin aparılması, uşaqların ailələri ilə əlaqələrin qurulması, sərgilərin, konfransların təşkili, bayramların qeyd edilməsi, qabaqcıl təcrübənin öyrənilməsi, yayılması və s.

Rəhbərin davranışı, səsinin tonu, hətta geyimi də ətrafdakılar tərəfindən daim dəyərləndirilərək qiymətləndirilir. Müəssisə rəhbərinə xas olan keyfiyyətlər arasında prinsipiallıq, xalqa, dövlətə hədsiz sədaqətlilik, şəffaflıq birinci yerdə durmalıdır. Rəhbərə xas olan bu keyfiyyətlər təhsil müəssisəsinin fəaliyyətinin müasir tələblər baxımından idarə olunmasına imkan verir. Müəssisə rəhbəri təkəbbürlü olmaqdan, lovğalıq, etinasızlıq, avtoritarlıq, yeni fikirləri qəbul etməmək və s. kimi xüsusiyyətlərdən uzaq olmalıdır.

Məktəbəqədər təhsil müəssisəsinin rəhbəri pedaqoji cəsarətə, yeniliyi duyaraq işin perspektivini görmək, elmin ən yeni nailiyyətlərinə əsaslanaraq işini qurmaq, işin səmərəliliyini artırmaq üçün yeni vasitələr və metodlar seçmək, tərbiyəçi-müəllimləri və digər əməkdaşları həmin vəzifələrin keyfiyyətlə yerinə yetirilməsinə cəlb etmək kimi bacarıqlara malik olmalıdır. Yalnız bu halda, rəhbərdə pedaqoji prosesin səmərəli idarə olunması kimi bacarıqlar formalaşır. [6].

Məlumdur ki, məktəbəqədər təhsilin səmərəli inkişafı o şərtlə təmin edilir ki, onun təlim fəaliyyətini reallaşdıran mükəmməl pedaqoji ənənəsi olmaqla yanaşı, həm də onda kifayət qədər inkişaf etmiş innovativ sistem formalaşmış olsun. Məktəbəqədər təhsilin inkişafının təminatı üçün, eyni zamanda pedaqoji prosesin idarə olunmasının məqsədəuyğun şəkildə dəyişdirilməsinə və inkişafetdirici pedaqoji sistemin qurulmasına planlı şəkildə yanaşılmalıdır. Məktəbəqədər təhsilin inkişafı nəticəsində pedaqoji prosesin idarə olunmasında elə keyfiyyət dəyişilmələri aparılmalıdır ki, bu dəyişikliklər nəticəsində təlim prosesində daha yüksək nailiyyətlər əldə olunsun.

Pedaqoji prosesin səmərəli idarə olunmasının təhlili aparılarkən; onun məqsədi, məktəbəqədər təhsil müəssisəsində əldə olunmuş nəticələr və nöqsanlar müəyyənləşdirilərək onları doğuran əsas səbəblər dəqiqləşdirilir. Aşkar edilən nöqsanların pedaqoji prosesə təsiri qiymətləndirilir, qazanılmış nəticələr ümumiləşdirilərək pedaqoji prosesin ilk növbədə hansı sahələrində dəyişikliklərin aparılması qərarlaşdırılır.

Məktəbəqədər təhsil müəssisələrində təlimin məzmunu, məzmuna qoyulan tələblər kollegial təhlil edilməli, təhsilin hər bir pilləsi arasında varislik gözlənilərək tədbirlər görülməlidir. Məktəbəqədər təhsil müəssisələrində təlimin məzmununa, bəşəriyyət tərəfindən əldə edilmiş sosial təcrübənin bütün nailiyyətləri daxil edilməli, təhsilin hər bir inkişaf səviyyəsində təhsilin məzmununda aşağıdakıların öz əksini tapması təmin edilməlidir:

— şəxsiyyətin formalaşmasını təmin edən biliklər sistemi;

— fəaliyyət üsulları: fəaliyyətin məlum üsullarından və toplanmış təcrübədən istifadə edərək, şəxsiyyətin müəyyən bacarıq və vərdişlər üzrə tələb olunan bilikləri qazanmağa imkan verən yeni yanaşmaların, texnologiyaların təlim prosesinə gətirilməsi;

— yaradıcı fəaliyyət təcrübəsi: cəmiyyətin tələbatına uyğun əvvəllər əldə edilmiş bilik və bacarıqların yeni şəraitdə tətbiqi üçün yaradıcı fəaliyyətin yeni formalarının axtarışı və tətbiqi;

— cəmiyyətin əldə etdiyi nailiyyətlərə hörmətlə yanaşma təcrübəsi: insanların fəaliyyət sahələrinə və istifadə etdiyi təlim üsullarına, ümumiyyətlə, bəşəriyyətin əldə etdiyi maddi və mədəni sərvətlərə hörmətlə yanaşma və onların dəyərləndirilməsi.

Pedaqoji prosesinin məzmununun idarə olunması ilk növbədə məzmunun formalaşdırılma metodologiyasının yaradılmasını tələb edir. Təlim prosesinin məzmununun müəyyənləşdirilmə metodologiyası aşağıdakı mərhələlərdən keçməlidir:

1. Nəzəri və təcrübi tədqiqatların, elmin, istehsalın, cəmiyyətin və şəxsiyyətin tələbatının

öyrənilməsi nəticəsində, hərtərəfli inkişaf etmiş insanın formalaşdırılması üçün təhsil müəssisəsinə veriləcək sosial sifarişin qabaqcadan formalaşdırılması;

2. Sosial sifarişə uyğun məzunların fəaliyyət növünə və keyfiyyətinə qoyulan tələblərin müəyyən edilməsi (Bu tələblər dövlət standartlarında əks olunmalı və cəmiyyətin inkişaf səviyyəsinə uyğun olaraq daim yeniləşdirilməlidir);

3. Müəyyən edilmiş standartlara uyğun olaraq keyfiyyətlərin və fəaliyyət növlərinin formalaşdırılmasına imkan verən pedaqoji prosesin məzmununun müəyyən edilməsi və mütəmadi olaraq təkmilləşdirilməsi [4, 8, 10].

Pedaqoji prosesin səmərəli idarə olunması son nəticədə keyfiyyətin yüksəldilməsinə xidmət etməli və rəhbər tərəfindən aşağıdakı üç komponent əsasında həyata keçirilməsi təmin olunmalıdır:

— tədris-təlim şəraitinin keyfiyyəti;

— pedaqoji prosesin keyfiyyəti;

— alınmış nəticələrin keyfiyyəti.

Nəticələrin keyfiyyəti pedaqoji proses üçün mövcud olan şəraitin keyfiyyəti ilə təyin olunur. Öyrədən (müəllim) üçün şəraitin keyfiyyəti daxili motivasiyanın, stimullaşdırma üsullarının və metodiki işlərin aparılması üçün imkanlarla müəyyən edilir. Öyrənən (təhsilalan, şagird, uşaq) üçün isə şəraitin keyfiyyəti əlverişli təhsil mühiti, motivasiyası, təhsilalma imkanı və sosial qayğı ilə müəyyən olunur.

Digər tərəfdən, nəticələrin keyfiyyəti pedaqoji prosesin keyfiyyətinə də təsir göstərir. Öyrədən üçün prosesin keyfiyyəti onun peşəkarlıq səviyyəsinin inkişafına imkan verən fasiləsiz təhsil proqramlarının mövcudluğu ilə müəyyən edilirsə, öyrənən üçün prosesin keyfiyyəti təhsil proqramları (kurikulumları) vasitəsilə təmin edilir. Nəticələrin keyfiyyəti, qarşıya qoyulmuş məqsədlərə çatma ölçüsüdür və hər bir təhsil müəssisəsi üçün keyfiyət indikatorları vasitəsilə müəyyən edilir. Öyrədənlər və öyrənənlər üçün nəticələrin keyfiyyət indikatorları standartlar şəklində ifadə olunur [2, 5, 7, 11].

Təhsilin keyfiyyətinin idarə olunma sistemi fəaliyyətin səmərəliliyi, monitorinq və keyfiyyət kimi üç anlayışın vəhdətini əhatə edir. Keyfiyyət fəaliyyətin xarakteristikasıdır, səmərəliliyin qiymətləndirilməsi keyfiyyətin müəyyən edilmə üsuludur, monitorinq isə bu üsulun reallaşdırılma mexanizminə səmərəli korreksiya işlərinin aparılması ilə bağlıdır.

Məktəbəqədər təhsil müəssisələrində rəhbər tərəfindən pedaqoji prosesin səmərəli idarə olunmasında aşağıdakı qaydalar nəzərə alınmalıdır:

— birinci, məktəbəqədər təhsil müəssisəsində pedaqoji prosesin səmərəli idarə olunması ilk növbədə ibtidai təhsillə qarşılıqlı əlaqənin qurulmasını ön plana çəkir;

— ikinci, pedaqoji prosesin elmi cəhətdən əsaslandırılmış prinsiplər əsasında idarə olunması onun təşkilinə təsir edən obyektiv, həm də subyektiv şərtlərin nəzərə alınmasını tələb edir. Obyektiv şərtlərə müəssisənin maddi-texniki bazasının vəziyyətini, pedaqoji prosesin təşkili sistemini, uşaq və tərbiyəçi-müəllimlər kontingentinin fərdi xüsusiyyətlərini daxil etmək olar. Subyektiv şərtlərə isə tərbiyəçi-müəllimlərin və rəhbərin peşəkarlıq səviyyələri, pedaqoji prosesin və metodiki işin təşkili səviyyəsi, pedaqoji kollektivin eyni zamanda uşaqların fərdi keyfiyyətləri və xüsusiyyətləri daxil edilir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarə olunmasının hazırda müasir tələblərə cavab verməməsinin əsas səbəblərindən biri də, onu həyata keçirən kollektiv üzvlərinin və rəhbərin proqnozlaşdırmaya dair təcrübi bacarıqlarının aşağı səviyyədə olmasıdır. Ona görə də idarəetmədə prosesin iştirakçıları, təşkilatçılar və rəhbər tərəfindən müəyyən prinsiplərin gözlənilməsinə, qarşılıqlı münasibətlərin

tənzimlənməsinə və icranın obyektiv təmin olunmasına böyük ehtiyac vardır. Ənənəvi metodlarla işləyən məktəbəqədər təhsil müəssisələrində uşaqların bacarıqlarının aşkara çıxarılıb, inkişaf etdirilməsinə lazımınca qayğı göstərilmir. Məktəbəqədər təhsil müəssisələrində belə nöqsanların aradan qaldırılması üçün mütəmadi tədbirlər görülməlidir.

**Məqalənin aktuallığı.** Təhsil sistemində pedaqoji proses və onun subyektlərinin fəaliyyətinin səmərəli təşkili XXI ərsdə fasiləsiz təhsil almanın keyfiyyətli əsaslarla həyata keçirilməsini tələb edir. Təhsilə sosial institut kimi baxıldığından, o cəmiyyətin əsas strukturlarından biri hesab edilir. Təhsilin inkişaf səviyyəsi cəmiyyətin siyasi, sosial, iqtisadi, mədəni inkişafının durumu ilə müəyyən edilir. Təhsil sisteminin ilk pilləsi olan məktəbəqədər təhsilin məzmununa, yeni təlim modellərinin və pedaqoji texnologiyaların tətbiqi keyfiyyətli pedaqoji prosesin qurulmasında xüsusi rol oynayır.

**Məqalənin elmi yeniliyi.** Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin inkişafı idarəolunan şəkildə qurulmalıdır. İnkişafın idarəolunan forması yeniliklərin və əvvəllər məktəbəqədər təhsilin pedaqoji sistemində təsdiqini tapmamış yeni yanaşmaların və texnologiyaların tətbiqi ilə şərtlənir. Pedaqoji yeniliklər, innovasiyalar dedikdə pedaqoji sistemdə və idarə olunmada elə müsbət dəyişikliklər başa düşülür ki, onların tətbiqi məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin keyfiyyətinin yüksəlməsi ilə nəticələnir və əldə edilmiş faydalı nəticələrin uzun müddət istifadəsi təmin olunur. İnnovativ proseslər isə məktəbəqədər təhsil müəssisələrdə innovasiya sisteminin yaradılması yolu ilə uğurla həyata keçirilməlidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə qeyd olunan məsələlər məktəbəqədər təhsilin inkişafinda mühüm əhəmiyyət daşıyır. Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarəedilməsində istifadə olunması nəzərdə tutulmuşdur.

## Ədəbiyyat

1. Mehrabov A.O., Abbasov A.N. və b. Müəllim hazırlığına yeni yanaşmalar. Bakı: Mütərcim, 2012, 324 s.

2. Cabbarov R.H. Təhsil müəssisələrini idarəetmə məsələləri. Bakı, 2001, 58 s.

3. Cabbarov R.H. Təhsil müəssisələrinin idarə edilməsində metodik xidmətin təşkili və planlaşdırılması. Bakı: 2005, 107 s.

4. Cabbarov R.H. Təhsil müəssisələrinin idarə edilməsinin yeni metodları. Bakı: Müəllim, 2006, 26 s.

5. Əhmədov A.Ə, Abbasov Ə.M. Məktəbəqədər təhsilin konseptual problemləri. Kurikulum jumalı, 2011, № 2, s. 8-15.

6. Əhmədova A.M, Mehrabov A.O, Pedaqoji prosesin idarəolunmasında rəhbərin rolu və yeni idarəetmə modellərindən istifadənin psixopedaqoji məsələləri // ARTPİ-nun Elmi əsərləri, 2013 № 4, s. 3-13.

7. Kərimov Y.Ş. Pedaqoji tətqiqat metodları. Bakı: Azərnəşr, 2009, 280 s.

8. Mehrabov A.O. Müasir təhsilin metodoloji problemləri. Bakı: Mütərcim, 2012, 252 s.

9. Mehrabov A.O. Təhsil sistemində konseptual modellər və pedaqoji konstuktivizim // Azərbaycan məktəbi, 2006, № 6, s.13-20.

10. Mehrabov A.O. Təhsildə keyfiyyət, ona nəzarət və idarə olunmasının təşkili xüsusiyyətləri // ARTPİ- nin Elmi Əsərləri, 2005, № 1, s. 31-37.

11.Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007, 447 s.

**A.M. Ахмедова**

## Педагогический процесс в дошкольных образовательных учреждениях и руководство над его эффективным управлением


### Резюме

Современный этап развития дошкольного образования характеризуется его тенденцией к обновлению. В это время модернизируются и обновляются системы и технологии учебного процесса. Внедрение новых идей и подходов к организации педагогического процесса способствует формированию детей как личностей. Эффективное управление педагогическим процессом актуализирует и выдвигает на передний план определение нового содержания, отвечающего современным требованиям.

Для развития дошкольного образования руководитель каждого учебного заведения должен разработать механизм саморазвития. Основываясь на данный механизм, следует проводить систематический анализ полученных в образовании результатов, и на основе результатов этого анализа должно быть предоставлено решение проблем, связанных с развитием образовательного учреждения. Эффективное управление образовательным учреждением, в первую очередь, требует проведения правильного, грамотного планирования, эффективной организации учебно-воспитательного процесса, мотивации, контроля и анализа полученных результатов.


**A.M. Ahmadova**

## Pedagogical process in preschool educational institutions and management over its effective management


### Summary

The current stage of development of preschool education is characterized by its tendency to upgrade. At this time, systems and technologies of the educational process are being modernized and updated. The introduction of new ideas and approaches to the organization of the pedagogical process contributes to the formation of children as individuals. Effective management of the pedagogical process actualizes and highlights the definition of new content that meets modern requirements.

To develop preschool education, the head of each educational institution must develop a mechanism for self-development. Based on this mechanism, a systematic analysis of the results obtained in education should be carried out, and a solution of the problems associated with the development of the educational institution should be provided based on the results of this analysis. Effective management of an educational institution, first of all, requires proper, competent planning, effective organization of the educational process, motivation, control and analysis of the results.


**Redaksiyaya daxil olub:** 14.10.2019